# Qaşqa və Qaratay



Bəzən biz özümüzü elə qəribə hiss edirik ki, baş verənləri dəqiq izah edə bilmirik. Hər kəs belə bir vəziyyəti aydınlaşdırmaq istəyir, deyilmi? Qaşqa – şən və nadinc balaca bir quzu idi və hamı ilə yola gedirdi. Amma bir gün...

Qaşqa atası ilə birlikdə axşam uşaq bağçasından evə qayıdırdı. Evə qayıdarkən atası Qoşqar fikir verdi ki, quzu özünü qəribə aparır. O qaşqabaqlı idi, heç nə danışmırdı və adətən etdiyi kimi atasından irəliyə qaçmırdı. Atası hətta bütün otlaq boyu qaçıb onu tutmalı da olmadı.

- Sənə nə olub, oğlum? – evə çatanda atası ondan soruşdu.

- Heç nə, - Qaşqa astadan cavab verdi və tez qaçıb arakəsmənin arxasında gizləndi.



O, uzun müddət təknədən dadlı su içdi, daha sonra isə yenə də ailəsinin yanına çıxmalı oldu.

Anası və atası onun davranışından narahat idilər. Bütün valideynlər kimi onlar da ilk növbədə Qaşqanın xəstələndiyini düşündülər.

Lakin quzunun temperaturu normal idi, boğazı qızarmamışdı, öskürmürdü və ağrıdan şikayət etmirdi.

Qaşqa sadəcə susurdu və başını aşağı salaraq ayağının birini götürüb o birini qoyurdu.

- Sənə nə olub, mənim quzum? - anası kədərlə soruşdu.

- Bilmirəm... - Qaşqa ah çəkdi. – Mən özümü qəribə hiss edirəm. Sanki ürəyimdən ağır və soyuq bir daş asılıb...

- Oh! – atası qorxdu. – Tez həkim çağırmaq lazımdır!



Çox vaxt keçməmiş böyük və naxışlı qanadlarını çırparaq bayquş Yapalaq uçub gəldi. Onun boynundan tibb çantası asılmışdı. Bayquş çox yaşlı və çox müdrik idi. O, geniş ağızlı taxta borunu Qaşqanın sinəsinə dayadı və onun ürəyinin necə döyündüyünə qulaq asdı. Sonra ondan dilini çıxarmasını istədi, əlini quzunun alnına qoydu və yerində tullanmasını xahiş etdi. Qaşqa bir neçə dəfə tullandı sonra isə samanın üstündə uzandı və ah çəkməyə başladı.

- Bütün axşam bax beləcə uzanır, - anası bayquşa şikayətləndi. – Yemir, oynamır, heç nə danışmır... Hörmətli həkim, mənim oğluma nə olub?



- Qaşqa tamamilə sağlamdır, narahat olmayın! – deyə müdrik bayquş cavab verdi və dinləmə borusunu çantasına saldı. – Lakin onu nə isə məyus edib. Gəlin soruşaq, bu gün o, uşaq bağçasında nə edib?





Qaşqa itaətkarlıqla cavab verdi:

- Biz otlaqda səhər yeməyi yedik, sonra isə gəzməyə getdik. Hər şey həmişə olduğu kimi idi. Əvvəlcə biz gizlənqaç oynadıq – mən dərhal dostum dayça Qaratayı tapdım, o, çəpərin arxasında gizlənmişdi, lakin mən onun qara quyruğunu gördüm. Sonra biz qaçdı-tutdu oynadıq – və Qaratay dərhal mənə çatdı, o çox tez qaçır! Sonra biz dərsə getdik və orada üç almaya aid məsələni həll etdik. Şahmar müəllim bizi təriflədi, dedi ki, biz komanda şəklində yaxşı işləyirik... Sonra isə...

Quzu qaş-qabağını salladı və susdu.

- Bəs sonra nə oldu? – deyə atası dözməyib soruşdu.

- Hörmətli ata, bir qədər gözləyin, - bayquş dedi. – Qaşqa, sən indi nə hiss edirsən?

- Bilmirəm. Mən çox kədərliyəm. Həm də incimişəm. Mənim üçün çox çətindir. Və heç nə istəmirəm. Olar, mən uzanım?

- Kimsə sənin xətrinə dəyib? – anası həyəcanla soruşdu.

- Yox! Hə...Bilmirəm... - və Qaşqa hönkürdü.

Bayquş qanadı ilə onun başını sığalladı və astaca dedi:

- İnan ki, sən bu ağırlığı bütün həyatın boyu özünlə gəzdirmək istəməyəcəksən. Danış və dərhal yüngülləşəcəksən.



- Biz... ilin fəsilləri haqda şeir öyrənirdik. Qaratay qış haqqında şeiri heç cür yadında saxlaya bilmirdi. Sonra isə o dedi ki, qış ilin çox pis fəslidir, heç kimə lazım deyil, çünki soyuqdur və otlar yoxdur. Mən isə dedim ki, bu doğru deyil – qışda əyləncəlidir! Çayda buz donanda, biz onun üstündə sürüşə bilirik, qardan qala düzəltmək, sonra isə qartopu oynamaq çox maraqlıdır. Həm də – qışda ən yaxşı bayram olan Yeni il keçirilir, hədiyyələr, şam ağacı, və şaxta baba! Biz mübahisə etdik... Və Qaratay məni "küt qoyun" adlandırdı – bütün sinfin və müəllimin qarşısında! Mən isə... Mən ona dedim ki, o at deyil – axmaq eşşəkdir! Və biz bir qədər dalaşdıq – mən öz buynuzlarımla onu vurdum, o isə dırnağı ilə ayağımın üstünə çıxdı... Müəllim bizi danladı və sinfin müxtəlif künclərinə qoydu... Və ondan sonra biz danışmadıq... Mən çox pisəm... Ən yaxşı dostumu itirmişəm! Qaratay məni heç zaman bağışlamayacaq!

Və quzu hönkür-hönkür ağlamağa başladı.



Valideynlər çarəsiz şəkildə bir-birinə, sonra isə həkimə baxdılar. Bayquş sarı rəngli yumru gözlərini qırparaq dedi:

- Dostları itirmək – çox ağrılıdır, bu düzdür. Xüsusilə də, özünü günahkar hiss etdiyin zaman. Mənə de görüm, səni belə adlandırdığına görə hələ də Qarataydan inciyirsən?

- Nə? – Qaşqa yaşarmış gözləri ilə bayquşa baxdı. – Əlbəttə, yox! O, qəsdən deməyib ki... Sadəcə... Ağzından çıxıb... Yəqin ki.

- Bəlkə Qaratay da artıq səndən incimir? Axı, sən də bu sözləri ona bilərəkdən deməmisən?

- Bəli... Ola bilər... - quzunun səsində ümid hiss olundu. – Bəs mən nə etməliyəm?

- Necə yəni nə etməliyəm? – anası güldü. – Əlbəttə ki, ən yaxşı dostunla barışmalısan!

- Bir mübahisəyə görə pozulan dostluq nəyə lazımdır? – atası dedi.

- Mən indi gəlirəm! – Qaşqa samanın üstündən sıçradı və dərhal qaçdı.



Otlaqda artıq hava qaralmışdı, ay buludların arxasında gizlənmişdi, səmada tək-tək ulduzlar görünürdü. Qaşqa yola baxmadan qaçırdı... Və birdən ona doğru qaçan kimləsə toqquşdu. Bu kim ola bilərdi?

- Meee!
- Yiii! Qaşqa, bu sənsən? – Qaratayın səsi eşidildi.
- Bəli... Oh, indi alnımda qabar olacaq... Sən nə edirsən?
- Bəs sən nə edirsən?

Dayça və quzu susdular. Sonra isə Qaşqa dilləndi:

- Qaratay, məni bağışla. Mən sənin xətrinə dəydim. Lakin mən bunu istəmirdim...
- Qaşqa, sən də məni bağışla. Mən səndən üzr istəmək üçün qaçırdım!
- Biz yenə dostuq? – deyə quzu sevinclə soruşdu.
- Əlbəttə! – dayça sevinclə güldü.

Müdrik bayquş əlbəttə ki, haqlı idi – artıq ağırlığı özünlə daşımağa ehtiyac yoxdur. Qaşqa və Qaratayın dostluğu bu əhvalatdan sonra daha da möhkəmləndi və onlar yenidən bir komanda oldular. Həm də onlar razılaşdılar ki, nə zamansa yenə mübahisə etsələr, mütləq bu yerdə görüşəcək və hər şey haqqında danışacaqlar.

